# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

17 (135) 04 oktyabr 2019-cu il İctimai-siyasi qəzet

## İlham Əliyev Fransa Senatının Fransa-Qafqaz dostluq qrupu sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Fransa Respublikası Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri və Azərbaycan üzrə sədr müavini Alen Uperin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham ƏLİYEV dedi:

-Azərbaycana xoş gəlmisiniz, sizi salamlayıram. Əminəm ki, səfəriniz Fransa-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün önəmli rol oynayacaq. Bu yaxınlarda səfirin etimadnaməsini qəbul edərkən Fransa-Azərbaycan əlaqələri haqqında öz fikirlərimi bölüşdüm. Hesab edirəm ki, əvvəlki dövrlərdə bu əlaqələrin inkişafı istiqamətində böyük işlər görülmüşdür və müxtəlif sahələrdə Fransa-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Siyasi əlaqələrimiz həmişə yüksək səviyyədə olub. Dövlət başçıları səviyyəsində bir çox qarşılıqlı səfərlər edilib. Onu da bildirməliyəm ki, Heydər Əliyevin Prezident vəzifəsinə seçiləndən sonra ilk xarici səfəri Fransaya olmuşdur. Mənim də Prezident vəzifəsinə seçilməyimdən sonra ilk rəsmi səfərim Prezident Jak Şirakın dəvəti ilə Fransaya olub. Fürsətdən istifadə edərək Prezident Jak Şirakın vəfatı ilə əlaqədar bir daha başsağlığı verirəm.

Fransa prezidentləri Azərbaycana rəsmi səfərlər etmişlər və keçən ilin iyul ayında mənim Fransaya səfərim çərçivəsində Prezident Makron ilə çox səmimi görüşümüz olub. Yüksək səviyyəli səfərlər bütün sahələrdə əlaqələrin inkişafına güclü təkan verib. Təsadüfi deyil ki, bir çox sahələrdə, o cümlədən energetika, nəqliyyat, kosmik sənaye, kənd təsərrüfatı, təhsil və digər sahələrdə əlaqələrimiz uğurla inkişaf edir. Əlbəttə ki, parlamentlərarası əlaqələr ümumi əlaqələrimizin inkişafına çox mühüm töhfə vermişdir. Əminəm ki, sizin səfəriniz də bu istiqamətdə çox uğurlu və önəmli addım olacaqdır.

Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri və Azərbaycan üzrə sədr müavini Alen UPER dedi:

-Cənab Prezident, bizi qəbul etdiyinizə görə təşəkkürümüzü bildiririk. Ölkənin birinci şəxsi tərəfindən səfərimizin müşayiət etdiyi nümayəndə heyətimizin qəbul edilməsindən şərəf hissi duyuruq. Səfir bu yaxınlarda təyin olunub və öz fəaliyyətinə artıq başlayıb. Şəxsən öz adımdan və Fransa adından Sizə və xanımınıza təşəkkürümüzü bildiririk, Prezident Şirakın vəfatı ilə əlaqədar siz dostluğunuzu nümayiş etdirdiniz. Dostluğun müddəti olmur. Siz bunu sübuta yetirdiniz. Ölkələrimizi səciyyələndirəcək bir söz olarsa, o, dostluq sözü olardı. Ölkələrimiz arasında güclü əlaqələr var. Çünki bir əsrdən çox müddət əvvəl sizin hökumətiniz Fransada mühacir olmuşdur. General de Qol hələ 1944-cü ildə burada olmuşdur.

Alen Uper mədəniyyətlərarası və dinlərarası dialoqda Azərbaycanın əhəmiyyətini xüsusi olaraq vurğuladı və Fransada bu mövzu ilə əlaqədar müzakirələr aparılan zaman Azərbaycanı nümunə kimi təqdim etdiyini bildirdi.

Dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar Azərbaycanın mövqeyini diqqətə çatdıraraq bildirdi ki, bu münaqişə yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Görüşdə Azərbaycan ilə Fransa arasında dostluq və əməkdaşlığın inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi rolu qeyd olundu. Həmçinin söhbət zamanı iki ölkə arasında elmi tədqiqat, tibb və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.





## *Müdafiə naziri "Qafqaz Qartalı - 2019" təlimləri çərçivəsində "Yüksək səviyyəli Müşahidəçi Günü"ndə iştirak edib*



Azərbaycanın Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbər heyəti, Türkiyə Respublikası, Gürcüstan və Pakistan İslam Respublikasından olan yüksək səviyyəli qonaqlar Bakıda keçirilən "Qafqaz Qartalı - 2019" birgə təlimləri çərçivəsində təşkil olunan "Yüksək səviyyəli Müşahidəçi Günü"ndə iştirak ediblər.

Müdafiə nazirinə maket üzərində planlaşdırılan fəaliyyətlər və təlimlərin gedişi barədə məruzə olunub.

Sonra təlimin döyüş atışlı mərhələsində aviasiya vasitələrinin dəstəyi ilə ərazidə xüsusi təyinatlı bölmələr tərəfindən müxtəlif tapşırıqlar icra olunub.

Birgə təlimin yekunlarını təhlil edən Müdafiə naziri təlimlərdə iştirak edən hərbi qulluqçuların döyüş hazırlığını yüksək qiymətləndirib və keçirilən təlimlərin ölkələrimizin, o cümlədən strateji əhəmiyyətli regional layihələrin təhlükəsizliyi baxımından vacibliyini qeyd edib. Müdafiə naziri bu təlimlərin ordularımızın yüksək döyüş qabiliyyətinin göstəricisi olduğunu vurğulayıb. Nazir təlim iştirakçılarına gələcək fəaliyyətlərində uğurlar arzulayaraq hər üç ölkənin xüsusi təyinatlılarının təlimlərinin yüksək səviyyədə keçirilməsindən məmnunluğunu ifadə edib.





Sonda Müdafiə naziri təlimdə təmsil olunan ölkələrin nümayəndələrinə hədiyyələr təqdim edib.

AZƏRBAYCAN VETERANI

# "Sülh göyərçini" aksiyası çərçivəsində 246 nömrəli məktəb-liseydə tədbir keçirilib

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin 75-ci ildönümünə hazırlıq çərçivəsində "Qələbənin Varisləri" Beynəlxalq İttifaqı ilə birlikdə sentyabrın 20-də Binəqədi rayonundakı 246 nömrəli məktəb-liseydə Beynəlxalq Sülh Günü ilə bağlı tədbir təşkil edib.




60-dək ölkənin qoşulduğu "Sülh göyərçini" mənəvi birliyə çağırış aksiyası çərçivəsində keçirilən tədbirdə Respublika Veteranlar Təşkilatının rəhbərliyi, İkinci Dünya müharibəsi veteranları, təhsil ocağının şagird və müəllim kollektivi, Təhsil Nazirliyinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.





Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov çıxış edərək deyib ki, İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbəyə mühüm töhfələr vermiş Azərbaycan bu beynəlxalq təşəbbüsdə fəal iştirak edir. Xalqımız bu müharibədə 340 minə yaxın övladını itirib, on minlərlə soydaşımız yaralanıb, minlərlə azərbaycanlı itkin düşüb. Azərbaycan xalqı faşizm üzərində Qələbənin qazanılmasına mühüm töhfələr verib. Bu tədbirdə məqsəd həm də dünyaya sülh mesajları çatdırmaqdır. Belə tədbirlər Azərbaycanın ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq baxımından da əhəmiyyətlidir. Bu müqəddəs işə dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir soydaşımız dəstək verməlidir.

Sonra məktəbin rəhbərliyi, Respublika Veteranlar Təşkilatının əməkdaşları, veteranlar çıxış edərək tədbirin əhəmiyyətindən, Azərbaycan dövlətinin sülhsevər siyasətindən, xalqımızın müharibə vəziyyətində yaşamasına baxmayaraq, daim sülh tərəfdarı olmasından danışıblar.

Daha sonra şagirdlər İkinci Dünya müharibəsi, Qarabağ və digər müharibələrdə həlak olmuş, itkin düşmüş azərbaycanlıların xatirəsinin yad etmək üçün hazırlanmış şarları havaya buraxıblar.

Tədbir iştirakçıları dünyanın 60-dan çox ölkəsinin təmsilçilərinin qoşulduğu videokonfrans vasitəsilə Azərbaycanın dünyada sülhün bərqərar olması ilə bağlı mövqeyini və xalqımızın əmin-amanlıq istəklərini bir daha bəyan ediblər.

Sonda məktəblilərin ifasında sülh haqqında mahnı təqdim olunub.

## Qarabağ müharibəsi əlillərinə daha 47 avtomobil təqdim edilib

Sentyabrın 24-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Qarabağ müharibəsi əlillərinə daha 47 avtomobil təqdim edib.

Bu münasibətlə keçirilən tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial islahatlar proqramından danışıb. Nazir müavini qeyd edib ki, bu il dövlət başçısının təqdim etdiyi iki sosial islahat paketi ilə minimum əməkhaqqının iki dəfəyə yaxın, minimum pensiyanın 72,4 faiz, sosial müavinət və Prezidentin aylıq təqaüdlərinin orta hesabla 100 faiz, məcburi köçkünlərə verilən müavinətin 50 faiz, eləcə də tələbələrin təqaüdləri ciddi şəkildə artırılıb və problemli kreditlərlə əlaqədar narahatlıq aradan qaldırılıb. A.Kərimov həmin tədbirlərin ümumilikdə 4,2 milyon vətəndaşı əhatə edərək onların rifahına ciddi dəstək olduğunu bildirib.

Şəhid ailələrinə və müharibə əlillərinə dövlət qayğısının hər il daha da artırıldığını diqqətə çatdıran A.Kərimov bu il Prezidentin aylıq təqaüdünün şəhid ailələri üçün 300 manata çatdırılmasının, müharibə əlilləri üçün də sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırılmasının sosial islahatlar paketinin tərkib hissəsi olduğunu xüsusi qeyd edib. Nazir müavini onu da bildirib ki, I qrup əlilliyi olanlara qulluq edənlər və müharibə veteranları üçün Prezidentin aylıq təqaüdü təsis edilib.



Tədbirdə qeyd olunub ki, indiyədək müharibə əlillərinə 6521 minik avtomobili verilib. Dövlət başçısının Sərəncamı 2019-cu ildə əlavə olaraq 400-dən artıq avtomobilin ayrılmasına və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müharibə əlillərinə nəzərdə tutulduğundan (180 avtomobil) 3,2 dəfə çox olmaqla 600-ə yaxın avtomobilin verilməsinə imkan yaradıb. Bu ilin ötən dövründə 377 avtomobil artıq öz sahiblərinə təqdim edilib.



Həmçinin Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə 2019-cu ildə azı 800 mənzil verilməsi nəzərdə tutulub ki, artıq bu ilin ötən dövründə 174 mənzil təqdim edilib. Ümumilikdə bu vaxta qədər 6828 şəhid ailəsi və müharibə əlili nazirlik tərəfindən mənzillə təmin olunub.

Tədbirdə çıxış edən İctimai Şuranın üzvləri, ictimai birliklərin rəhbərləri ölkəmizdə sosial müdafiə sisteminin gücləndirilməsi üçün aparılan işlərdən, müharibə əlillərinin, şəhid ailələrinin rifah halının yaxşılaşdırılması istiqamətində icra olunan proqramlardan razı qaldıqlarını bildiriblər.

Minik avtomobili ilə təmin olunan müharibə əlilləri ölkədə həmin kateqoriyadan olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi sahəsində işlərin davamlı olaraq güclənməsinə, həmçinin, bu gün yeni avtomobillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

AZƏRBAYCAN VETERANI



17 (135) 04 oktyabr 2019-cu il

# “Çarəsizlik İrəvanı qadınları, qocaları ordu sıralarına cəlb etməyə vadar edir”

***Cəlil Xəlilov: “Düşmən müdafiəni belə rezerv qüvvələrsiz təşkil edə bilmir”***

Ermənistan ordusunda yaşanan insan resursu çatışmazlığı rəsmi İrəvanı bir-birindən əcaib addımlar atmağa məcbur etməkdədir. Son vaxtlar diqqət çəkən belə əcaib addımlardan biri də yanğınsöndürmə dəstələrinin ön xətdə təhkim edilməsi, döyüş postlarında növbətçilik prosesinə cəlb olunmasıdır. Hansı ki, rəsmi İrəvanın bu addımı Ermənistan daxilində ciddi narazılıq və etiraza rəvac verməkdədir

Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov baş verənləri Ermənistan ordusunun acınacaqlı durumunun növbəti təsdiqi kimi dəyərləndirib:

“Bu, onu göstərir ki, artıq Ermənistanın rezervi bitib. Orduya gedən, ordu sıralarına qatılan yoxdur. Buna görə də erməni hərbi-siyasi rəhbərliyi məcburiyyət qarşısında qalıb qadınları, yaşlıları ordu sıralarına cəlb edir. Bu isə əhali arasında ciddi narazılığa səbəb olur. Baş verənlər öz növbəsində etirazlarla, aksiyalarla nəticələnir. Bütün bunlar Ermənistanın hərbi hazırlıq durumunun nə qədər acınacaqlı vəziyyətdə olduğunu göstərir.

2016-cı ilin aprel döyüşlərində Azərbaycan ordusunun rezerv qüvvələrindən istifadə etmədən, heç bir mobilizasiya aparılmadan düşmən hücumu dəf edildi və uğurlu əks-hücum həyata keçirildi. Bir neçə strateji yüksəklik düşməndən azad edildi. Lakin bu gün ermənilər sadəcə müdafiəni təmin etmək üçün ən müxtəlif kateqoriyadan olan insanları, eləcə də yanğınsöndürənləri orduya cəlb edirlər. Bu, düşmən ordusundakı ağır vəziyyətdən xəbər verir.

Ermənilər əvvəllər ərazilərindəki rus hərbi bazalarına arxayın idilər. Lakin bu gün rus hərbçiləri Azərbaycanın işğal edilmiş torpaqlarına daxil olmaqdan imtina edir, Qarabağ müharibəsinə hər hansı şəkildə qarışmaq istəmir. Qarabağ Azərbaycanın ərazisidir və əgər Azərbaycan bu ərazidə terrorizmə və separatizmə qarşı mübarizə aparırsa, bu, onun daxili işidir. Azərbaycanın daxili işinə isə kimsə qarışa bilməz. Rusiya da bu məsələni anlayır. Son vaxtlar Rusiya açıq şəkildə ermənilərə işarə edir ki, Azərbaycanla probleminizi özünüz həll etməlisiniz.



Bir sözlə, Ermənistanın vəziyyəti bu gün kifayət qədər ümidsizdir və onun qadınları, qocaları, müxtəlif peşə sahiblərini orduya cəlb etməsi də düşmən ölkədəki acınacaqlı durumdan xəbər verir”.

***Seymur ƏLİYEV***

# Şəhid məzarlarına və xatirə güşələrinə vətəndaşların diqqəti daha da artırılacaq

“Beynəlmiləlçi Əlil Döyüşçülər” Fondunun üzvləri Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə “Şəhidlərin xatirəsinin əbədiləşdirilməsinə həsr olunmuş tədbirlərin təşkili” layihəsi çərçivəsində Cəlilabad rayonunun Günəşli kəndinin el məzarlığında dəfn edilmiş, ölkəmizin suverenliyi və ərazi bütövlüyünün müdafiəsi uğrunda canlarını



vermiş şəhidlərin məzarlarını ziyarət edib və onların vəziyyətləri ilə bağlı monitorinq keçiriblər.

“Beynəlmiləlçi Əlil Döyüşçülər” Fondundan prezidenti Sərraf Oruc bununla bağlı keçirilən tədbirdə rəhbəri olduğu layihənin məqsədi haqqında məlumat verib. Bildirib ki, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı gedən döyüşlərdə şəhid olanlar üçün Bakıda və bölgələrdə Şəhidlər xiyabanı salınıb və orada dəfn ediliblər. Bəzi şəhidlər isə onların valideynlərinin arzusu ilə Bakının digər yerlərində və rayonların el məzarlıqlarında dəfn olunublar. Monitorinqlər zamanı məlum olub ki, dəfn edilmiş bəzi şəhidlərin məzarları və xatirə güşələri onların valideynləri vəfat etdikdən sonra baxımsız qalıb. Lerik rayonunun Rvarud kəndində Qarabağ şəhidlərinin xatirəsinə ucaldılmış abidə, Cəlilabad rayonunun Günəşli kəndinin, Astara rayonun el məzarlığında və rayonun Şiyəkəran kəndinin məzarlıqlarında şəhid məzarlarının üstündə düzəldilmiş çardaq örtükləri isə kənd sakinləri tərəfindən şəhidlərimizə verilən yüksək dəyərdir.

Tədbirdə Azərbaycan Respublikasının Prezident Administrasiyasının məsul işçisi Rasim Mirzəyev bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün müdafiəsində, Qarabağ müharibəsində şəhid olmuş ailələrin sosial müdafiəsi dövlət qurumlar tərəfindən təmin olunur və onların sosial təminatı günü-gündən yaxşılaşdırılır. Belə vətəndaşlarımızın sosial problemlərinin həlli istiqamətində dövlətin diqqət və qayğısını artırmaq məqsədilə ulu öndər Heydər Əliyev çoxsaylı müvafiq fərman və sərəncamlar imzalayıb. Hazırda şəhid aillərinə göstərilən yüksək diqqət və qayğı siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



“Şəhidlərin xatirəsinin əbədiləşdirilməsinə həsr olunmuş tədbirlərin təşkili” layihəsi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2019–cu ildə qrant müsabiqəsində qalib olmuş ən aktual və cəmiyyət üçün ciddi məsələlərdən biridir.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov, Vətən Müharibəsi Əlillərinə Kömək İctimai Birliyinin sədr müavini Məcid Məmmədov diqqətə çatdırıblar ki, layihə gənclərimizin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına müsbət təsir göstərəcək. Belə ki, şəhidlərimizin qəhrəmanlıqları gənclərin hərbi vətənpərvərlik ruhunda böyümələri üçün nümunədir.

# Astaralılar 650 min ədəd ağac əkilməsi ilə bağlı təşəbbüsə qoşularaq, ekoloji mühitin qorunmasına öz töhfələrini verəcəklər



Ağac əkmək, ətraf mühiti yaşıllaşdırmaq gözəl təşəbbüsdür. Yaşıllıqların qorunması, yeni ağacların əkilməsi hər kəsin marağında olmalıdır.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranlar Təşkilatının Astara rayon şöbəsinin sədri Rafiq Əliyev deyib.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın böyük mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə ölkəmizdə 650 min ədəd ağac əkilməsi ilə bağlı təşəbbüsünü bu sahədə növbəti nəcib addım kimi dəyərləndirən R.Əliyev ölkəmizin bütün bölgələrində olduğu kimi, Astara rayonunda da vaxtaşırı olaraq agacəkmə aksiyalarının keçirildiyini diqqətə çatdırıb.

O deyib: “Astara ölkəmizin dilbər guşələrindən biridir. Təbiət bu yerlərdən səxavətini əsirgəməyib, bərəkət boxçasını bütünlüklə onun üzünə açıb. Hirkan Milli Parkının ərazisində olan meşə sahələrinin əksəriyyəti Astaranın payına düşür. Ağac əkmək savab işdir, onu qorumaq və ona qulluq göstərmək isə ondan da savabdır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə ölkəmizdə 650 min ədəd ağac əkilməsi ilə bağlı təşəbbüsü astaralılar tərəfindən böyük razılıqla qarşılanıb. Rayon sakinləri bu aksiyaya qoşulmaqla ekoloji mühitin qorunmasına öz töhfələrini verəcəklər".

# Riqanın yaxınlığındakı Salaspils düşərgəsində İkinci Dünya müharibəsi zamanı həlak olanların xatirəsi anılıb



Latviyanın Riqa şəhəri yaxınlığında yerləşən Salaspils düşərgəsinin faşistlərdən azad olunmasının 75 illiyinə həsr olunmuş anım tədbiri keçirilib. Mərasimdə Azərbaycan, Rusiya və Belarusdan olan diplomatlar da iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, müharibə veteranlarının da qatıldığı tədbirdə iştirakçılar Salaspils Memorial Abidəsinin qarşısına əklillər düzərək müharibə qurbanlarının xatirəsini yad ediblər.

Salaspils ölüm düşərgəsi İkinci Dünya müharibəsi zamanı əsasən azyaşlı əsirlərin saxlanılması üçün faşistlər tərəfindən yaradılmışdı. Düşərgədə 100 mindən çox insan həyatını itirib.

Aygün Əliyeva
AZƏRTAC-ın xüsusi müxbiri
Riqa

## Əgər babanız Böyük Vətən müharibəsində itkin düşübsə...

Belə bir bazanın yaradılması haqqında razılaşma Rusiya Hərbi Arxiv İdarəsi və Almaniya Federal Arxivi tərəfindən imzalanıb.

Rusiya Hərbi Arxiv İdarəsi İkinci Dünya Müharibəsi dövründə əsir düşən 500 minə qədər sovet hərbçisi haqqında sənədlərin elektron sürətlərini alacaq.

RİA Novostinin məlumatına əsasən bu sənədlərin əsasında onlayn baza yaradılacaq.

Qeyd olunur ki, belə bir bazanın yaradılması haqqında razılaşma Rusiya Hərbi Arxiv İdarəsi və Almaniya Federal Arxivi tərəfindən imzalanıb.



# Tərtərdə “Babək 44” taborunun keçmiş döyüşçülərinin görüşü təşkil edilib



***1992-ci ildə yaranmış “Babək 44” taborunun keçmiş döyüşçülərinin Tərtərdə görüşü təşkil edilib.***

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Müdafiə Nazirliyi, "Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyi və Tərtər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə keçmiş döyüşçülər Tərtərdəki Şəhidlər abidə kompleksinin, Azərbaycanın Milli qəhrəmanları Vəzir Orucovun və Elman Hüseynovun büstləri önünə əklil və tər gül dəstələri qoyublar. Sonra rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının və ictimaiyyətin nümayəndələri, Qarabağ müharibəsi veteranları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək xatirəsinə ehtiramlarını bildiriblər.



Tərtər rayon Mədəniyyət Mərkəzində “Babək 44” taboru haqqında çəkilmiş filmin təqdimatı olub. Təqdimatdan əvvəl respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət Himni səsləndirilib.



Filmin ideya rəhbəri, ehtiyatda olan zabit Nazim Quliyev çıxış edərək, "Babək-44" taboru və film haqqında məlumat verib. Bildirib ki, 1992-ci ildə yaradılmış 703 saylı hərbi hissənin tərkibində şərəfli döyüş yolu keçmiş “Babək 44” taboru ən qızğın döyüşlərdə göstərdiyi rəşadət və qəhrəmanlıqla seçilib. Tabor 400 nəfərə qədər əsgər və zabitdən formalaşıb, döyüşlərdə 174 şəhid və itkin verib. Taborun döyüşçülərindən ikisi Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, yeddi nəfər “Azərbaycan Bayrağı” ordeni, iki nəfər isə "Hərbi Xidmətlərə görə" medalı ilə təltif edilib.

Sonra filmə baxış olub. Filmdə taborun yaranma tarixi, keçdiyi döyüş yolu, göstərdiyi qəhrəmanlıqlar, döyüşdüyü əsas ərazilər barədə məlumat verilir. Filmin çəkilişləri zamanı Dağlıq Qarabağ uğrunda, Ağdərə ətrafında gedən döyüş kadrlarından, həmçinin döyüşlərdə iştirak etmiş şahidlərin, komandirlərin, şəhid valideynlərinin müsahibələrindən istifadə olunub.

Tədbir iştirakçıları N saylı hərbi hissədə əsgər və zabit heyəti ilə görüşüblər. Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxışında keçmiş döyüşçülərin görüşünün təşkilini və “Babək 44” taboru haqqında çəkilmiş filmi yüksək qiymətləndirib, Qarabağ müharibəsi veteranlarına, şəhid ailələrinə göstərilən dövlət qayğısından, xalqla ordunun monolit birliyindən bəhs edib. Bildirib ki, Qarabağ müharibəsi zamanı igidliklə döyüşmüş tərtərlilər bu gün də öz doğma torpaqlarında mətin dayanıb və Ali Baş Komandanın əmri ilə torpaqlarımızın azad olunması uğrunda döyüşə atılmağa hər an hazırdırlar.

"Qarabağ Əlillərinə Qayğı" İctimai Birliyinin sədri Firudin Məmmədov, "Babək 44" taborunun ilk komandirləri Elxan Qəniyev, Abukər Mirzəyev və başqaları çıxış edərək, taborun keçdiyi şərəfli döyüş yolundan, Azərbaycan ordusunun qüdrətindən danışıblar. Çıxışlarda hərbi qulluqçuların, eləcə də müharibə veteranlarının hər an müqəddəs savaşa hazır olduğu bildirilib.

Sonra xidmətdə fərqlənən hərbi qulluqçulara və "Babək 44" taborunun keçmiş döyüşçülərinə fəxri fərman və hədiyyələr təqdim olunub.

Tədbir Həzi Aslanov adına ordu ideoloji və mədəniyyət mərkəzinin mahnı və rəqs ansamblının, Gəncə qarnizonunun ideoloji və mədəniyyət mərkəzinin və respublikanın tanınmış incəsənət xadimlərinin ifasında geniş konsert proqramı ilə davam edib. Sonda hərbi hissənin şəxsi heyəti ilə birgə nahar olub.

"Babək 44" taborunun keçmiş döyüşçüləri ön xəttə gedərək, səngərdə xidmət edən əsgər və zabitlərlə də görüşüblər.

# “Əgər tezliklə əncam çəkilməsə, baş verə biləcək fəlakətin miqyasını sözlə ifadə etmək çətin olacaq”



Xocalıdakı 366-cı motoatıcı alayı girov götürən, yaralandığı zaman xocalıların çiyinlərində daşıdıqları Milli Qəhrəman Aqil Quliyev.

Milli Qəhrəman Aqil Quliyev 19 sentyabr 1963-cü ildə Qərbi Azərbaycanın Sisyan rayonunun Urud kəndində doğulmuşdur. 1980-ci ildə orta məktəbi bitirib, Azərbaycan Neft Akademiyasının axşam şöbəsinə daxil olur. Üçüncü kursda oxuyanda hərbi xidmətə çağırılır. Əsgəri xidmətini başa vurduqdan sonra yarımçıq qalmış təhsilini davam etdirmək fikrindən daşınır. Çünki onun marağı artıq başqa bir sahəyə yönəlmişdi. O, 1982-ci ildə Xarkov Ali Milis Məktəbinə daxil olur. 1986-cı ildə həmin məktəbi fərqlənmə diplomu ilə bitirərək orada müəllimlik etməyə başlayır. İki il sonra Aqilin həyatında ən üzüntülü günlər başlayır.

1988-ci ildə Dağlıq Qarabağda baş verən hadisələr, digər tərəfdən isə valideynlərinin erməni şovinistləri tərəfindən doğma yurdlarından vəhşicəsinə qovulması onu bərk narahat edirdi. O, nigarançılığa son qoymaq üçün ailəsini də götürüb Bakıya gəlir. Ailəsinə müvəqqəti sığınacaq tapır və sonra təzəcə yaranmaqda olan Milli Ordunun qərargahına gələrək cəbhəyə göndərilməsini xahiş edir. Bu müraciətdən sonra onu 45 nəfər döyüşçü ilə birlikdə Ağdam bölgəsinə göndərirlər. Leytenant A.Quliyev rota komandiri təyin edilir. Vətən müdafiəçiləri sırasında onun kiçik qardaşı Nəsimi də var idi. Nəsimi isə kəşfiyyat qrupuna başçılıq edirdi. Bölük Ağdama çatanda Xocalı artıq düşmən mühasirəsindəydi. Aqil vaxt itirmədən öz dəstəsilə ilə Xocalıya yolanır. Əhali dəstənin gəlişini səbirsizliklə gözləyirdi. Güman edirdilər ki, dəstə onları mühasirədən qurtaracaq. Lakin döyüşçülərin sayca az olması və silah-sursatın çatışmaması mühasirəni yarmağa imkan vermədi. 366-cı motoatıcı alay Xocalıya doğru irəliləyirdi. Aqil Quliyev dinc əhalinin müdafiəsini təşkil eləmək üçün var gücü ilə çalışırdı.

1992-ci ilin fevral ayı... Artıq Xocalı mühasirədə idi. Erməni yaraqlıları 366-cı alayın köməyinə arxalanaraq insanları vəhşicəsinə qırırdılar. Aqil öz rotası ilə düşmənə bir neçə dəfə sarsıdıcı zərbə endirdi. 1992-ci il fevralın 18-dən 25-nə qədər davam edən döyüşlərdə rota komandiri böyük rəşadətlə döyüşdü, onlarla erməni faşistini məhv etdi. O, bu döyüşlərin birində - “Qaz kontoru” deyilən yerdə hər iki ayağından yaralandı.

Fevralın 25-i... Bu tarix qanla yazılan səhifələrimizdəndir. Döyüş dostları onu təhlükəsiz yerə aparmağa cəhd göstərirlər. Lakin amansız ölüm onları haqlayır. Kətik kəndi yaxınlığında güllələrdən biri onun ürəyinə sancılır. Aqilin də ömrü burda qırılır. Onun cəsədini faciədən 5 gün sonra hadisə yerindən götürmək mümkün olur.

Ailəli idi. Bir qızı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Quliyev Aqil Sahib oğluna ölümündən onra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilib. Bakının Bayıl qəsəbəsindəki küçələrdən biri onun adını daşıyır. Yaşadığı binanın önündə xatirə lövhəsi vurulub.

# Səmimi və qayğıkeş insanlar...

Yaşadığımız bu gözəl dövrdə dövlətimizin xalqımız üçün yaratdığı rahat həyat tərzi bütün sahələrdə özünü yüksək səviyyədə göstərməkdədir. Əhalinin sosial təminatı, sağlamlığının qorunması dövlətin diqqət mərkəzindədir. Bu mənada Vətənimizin hər yerində əhalinin sağlamlığının qeydinə qalmaq üçün müasir avadanlıqlarla təchiz olunmuş sanatoriyalar və sağlamlıq ocaqları fəaliyyət göstərir.

Onlardan biri də kecmiş sovetlər birliyindən miras qalan, adı dillər oldum.

Burada müxtəlif vannalar, masaj, fizoterapiya, parafin, işıq vannası, sollyuks, elektroforez, amplipuls, maqniterapiya, ultrasəs, inhalyasiya kimi müalicə kursları tətbiq olunur.

Azərbaycanda belə gözəl Naftalan kimi möhtəşəm şəfa ocağının olması xalqımız üçün sevindirici bir haldır.

Mən burada çalışan peşəkar və işgüzar insanların işlərindən çox razı qaldım. Çox istərdim ki, onlardan bəzilərinin adlarını xüsusi olaraq




əzbəri olan və Azərbaycanın dilbər güşələrindən birində qərar tutan, dağlar qoynunda yerləşən Naftalan sanatoriyasıdır.

Bu şəfa ocağının sorağına bu gün də dünyanın hər yerindən şəfa tapmaq üçün insanlar axışırlar.

Müalicədən əlavə buraya gələn hər kəsi üzü gülər, bacarıqlı, öz işlərində peşəkar kadrlar qarşılayırlar. İlk öncə gələnlər baş həkim tərəfindən qəbul edilir və təyin olunmuş diaqnoz əsasında müalicə kursu təyin olunur.

Göndəriş əsasında burada sanator müalicə qəbul etmək mənə də nəsib oldu. Eşitdiklərimin canlı şahidi qeyd edim, onlara Respublika Veteranlar Təşlilatının rəhbərliyi və şəxsən öz adımdan sonsuz təşəkkür bildirirəm.

Onlardan: - Sanatoriyanın rəhbəri Əliyev Həsən, icraçı direktor Hacı Məhəmməd, Əzizov Dilsus, Səbuhi, Akşın, Balaxan, Mehriban xanım, Aynurə xanım, Şəhla xanım, Aytən xanım, Mənsurə xanım, Vüsalə xanım və s.

İşiniz uğurlu olsun.

*Yəhya Ağayev*
*Nizami Rayon Veteranları Təşkilatının sədri*

# Veteranlar üçün istirahət turu təşkil olunub

Respublika Veteranlar Təşkilatının Həmkarlar İttifaqı veteranlar üçün istirahət turu təşkil edib.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının bir qrup üzvü sentyabr ayının 27-sində “Şahdağ” Turizm Mərkəzində birgünlük istirahət turunda olublar.




Təşkil edilmiş tur çərçivəsində veteranların və ailə üzvlərinin rahat və mənalı istirahəti üçün hər cür şərait yaradılıb. Veteranların “Şahdağ” Turizm Mərkəzində fəaliyyət göstərən bütün əyləncə və istirahət obyektlərindən istifadə etmələri tam təmin olunub. Bakıdan Şahdağ Turizm Mərkəzinə gəlmək və geri dönmək üçün veteranlar nəqliyyat vasitəsi ilə də təmin olunublar.

Respublika Veteranlar Təşkilatının Həmkarlar İttifaqının sədri Nəbi Hacıyev “Şahdağ” Turizm Mərkəzində veteranlar üçün yaradılan şəraitdən razılığını bildirib. Veteranlar Svetlana Kərəmova, Mehman Əlizadə, Raqif Dadaşov, Rüstəm Mehtizadə və əməyi keçən hər bir kəsə onlara göstərdikləri diqqət və qayğıya görə minnətdarlıq etdilər.

Qeyd etdi ki, müharibə və Silahlı Qüvvələr, habelə əmək veteranlarına diqqət və qayğı göstərilməsi, onların asudə vaxtlarının səmərəli keçirilməsi üçün bu cür turların mütəmadi olaraq həyata keçirilməsi planlaşdırılır.

# Bu mühüm və çətin tapşırıqdır. Sənə inanırıq...



Yəqin ki, bir çoxlarınız Şahsevən kəndi və onun adamları haqqında eşitmişsiniz.

Gəray Lətif oğlu Əsədov 1923-cü ildə bu kənddə anadan olmuşdur. Lətif kişi bu şad xəbəri yaylaqda eşitmiş, illərdən bəri köksündə gəzdirdiyi arzunun yerinə yetdiyini görüb, ürəkdən sevinmişdi.

Şahsevənin geniş çölləri, təpələri, Əskər arxının, Araz çayının qırağı kənd uşaqlarının oylağı idi. Gərayın da uşaqlıq illəri buralarda keçmişdi. O, bir dəstə yaşıdları ilə quzu otarar, çayda çimər və maraqlı oyunlardan yorulmazdı. hələ uşaqlıqdan öz çevikliyi ilə yaşıdlarından seçilən Gəray çox vaxt oyunların qalibi olardı. O, məktəbin nümunəvi şagirdlərindən idi. İctimai işlərdə fəal iştirak etdiyinə görə müəllimləri Gəraya qəzet və jurnalları oxudururdu. O oxuduqlarını uşaqlar üçün də izah edirdi.

Müharibənin ilk günlərində gənclərin əksəriyyəti cəbhəyə yola düşdü. Dəfələrlə rayon hərbi komissarlığına və komsomol komitəsinə məktub yazıb orduya könüllü getməsini xahiş etsə də, Gərayı hələ aparmırdılar. O, səhərdən axşama kimi kolxozun tarlalarında işləyirdi.Uşaqlıq və cəbhə dostu Çoban Qarayev öz xatirələrində yazır: «Müharibə başlananda bizim on səkkiz yaşımız da tamam olmamışdı. Ancaq xalqa, Vətənə necə kömək edəcəyimizi yaxşı başa düşürdük. Bircə gün də olsun tarladan ayağımızı çəkmirdik, gecə-gündüz işləyirdik».

1941-ci ilin noyabrında Jdanov (indiki Beyləqan) rayon hərbi komissarlığı Gərayın və onun yoldaşlarının könüllü olaraq Qızıl Ordu sıralarına getmələrinə icazə verdi.

Şahsevən camaatı stansiyaya toplaşmışdı. Məktəblilər də cəbhəyə gedən komsomolçuları yola salmağa gəlmişdilər. Gərayın atası Lətif əmi, anası Gülara xala da burada idilər. Onlar Gərayı bağrına basaraq: «-Get, bala, uğur olsun! Amma namusla, qeyrətlə vuruş, başımızı el içində aşağı eləmə!» - dedilər.

Cavanlar birbaş cəbhəyə gedəcəklərini, azğın düşməndən tezliklə intiqam alacaqlarını düşünürdülər. Ancaq əvvəlcə onları Naxçıvan MSSR-yə gətirdilər. Burada gənc əsgərlərə təlim keçilirdi.

Gəray bütün məşqlərdə həmişə fərqlənirdi. Onun hərbi təlim zamanı dəqiqliyi, deyilənləri vaxtında və düzgün yerinə yetirməsi komandanlığın diqqətini cəlb etmişdi. Buna görə də Gərayı Naxçıvanda qısamüddətli hərbi kursa göndərdilər. O, məktəbi müvəffəqiyyətlə bitirib, serjant rütbəsi aldı.

Doğma alayında avtomatçılar rotasına bölmə komandiri tə'yin edilən Gəray xidmət etdiyi hissə ilə İrana göndərilir. 1942-ci ilin yayında isə düşmənə qarşı döyüşlərdə iştirak etmək üçün Qafqaz cəbhəsinə yola düşür. Bu zaman Qafqaz uğrunda şiddətli vuruşlar gedirdi...

Düşmən nəyin bahasına olursa-olsun, Qafqazı ələ keçirməyə çalışırdı. Hitlerçilər düşünürdü ki, yanacaq böhranından xilas olsun, digər tərəfdən isə Sovet Ordusunu və SSRİ-nin mərkəzi rayonlarını Şimali Qafqaz taxılından və Bakı neftindən məhrum etsin. Faşist komandanlığı bu məqsədlə «Edelveys» adlı xüsusi plan hazırlamış və bu planı həyata keçirməyi general-feld-marşal Litsin komandan olduğu «A» qrup ordularına tapşırmışdı.

1942-ci il iyulun 24-də «A» qrup orduları Qafqazın açarı sayılan Rostovu tutdular. Bir neçə gündən sonra Qafqaz üzərinə hücum başlandı. Canlı qüvvə və texniki cəhətdən üstün olan düşmən qısa müddətdə Donarxası, Salsk düzlərini, Krasnodar ölkəsini tutmağa müvəffəq oldu. Avqustun ortalarında Baş Qafqaz dağlarının ətəklərinə, bəzi yerlərdə isə Terekin sağ sahilinə çatdı.

Qafqazın müdafiəsində mərdliklə vuruşanlar arasında Gəray Əsədov da vardı. Onun döyüş yolu Mozdokdan başlamışdı.

Düşmən döyüşə yeni-yeni qüvvələr çıxarırdı. Gərayın bölməsi əks-hücumlarda minlərlə sovet döyüşçüləri kimi rəşadətlə vuruşurdu.

1941-ci ilin dekabr ayında rota komandiri Gərayı yanına çağırıb, onun bölməsinə «düşmənin canlı və texniki qüvvəsi haqqında ətraflı məlumat gətirməyi» tapşırdı. Gəray özü ilə yalnız bir nəfər döyüşçü götürüb, gecənin zil qaranlığında Terekin sahilində yerləşən düşmən səngərlərinin arxasına keçdi.

Çox çəkmədi ki, xeyli əziyyətdən sonra Gəray polka «dil» də gətirdi. Bu onun ilk uğurlu səfəri deyildi; dəfələrlə belə çətin tapşırıqları yerinə yetirmişdi.

Yaş səngərlərdə müşahidə aparan Gərayı məntəqəyə çağırdılar. Gəray içəri girən kimi komandir stolun üstündəki xəritəyə əyilib dedi:

- Görürsənmi, Gəray bu Terek çayıdır. Burada düşmən səngərləri yerləşir. Bu axşam öz bölmənlə çayı keçib, düşmənlər arasına çaxnaşma salmalısan. Faşistlərə arxadan qəfil zərbə vura bilsək, onlar mütləq özlərini itirəcək və mövqeylərini əldən verməli olacaqlar. Bu mühüm və çətin tapşırıqdır. Sənə inanırıq.

- Aydındır, yoldaş komandir! Əmriniz yerinə yetiriləcəkdir! - deyə serjant G.Əsədov hərbi qaydada cavab verdi.

Gəray öz bölməsinin əsgərləri ilə Terek çayını keçib, düşmən arxasında döyüş mövqeyi tutdu. Gözlənilən vaxt gəlib çatmışdı. Saatın əqrəbləri bir-biri ilə görüşəndə atışma səsinə güclü «ura» səsləri qarışdı. Təşvişə düşən hitlerçilər pərakəndə halda səngərləri tərk edib, geri çəkilməyə məcbur oldular. Bu döyüş haqqında cəbhə qəzetlərinin birində yazılmışdı: «Çox keçmədi ki, arxa tərəfdən açılan güllələr faşistləri təşvişə saldı. Onlar sovet döyüşçülərinin arxaya keçə bilə- cəyini heç güman etməzdilər. Düşmən çaşıb qalmışdı. Bu qarışıqlıqdan istifadə edən leytenant Şahbazovun döyüşçüləri ön tərəfdən hücuma keçdilər. Bir neçə saatdan sonra düşmən geri çəkilməyə məcbur oldu...» G.Əsədovun iştirak etdiyi belə döyüşlər çoxdur. O, həmişə öz ağlı və cəsarəti ilə qələbə qazanırdı.

Qafqaz uğrunda döyüşlər davam edirdi. Düşmən tutduğu mövqelərdən asanlıqla əl çəkmək fikrində deyildi.

1941-ci il yanvarın 14-də valideynlərinə göndərdiyi məktublarda igid döyüşçü yazırdı: «Unudulmaz ana və ata! Vətənimizin üzərini bürüyən qara buludlar yavaş-yavaş çəkilir. Heyf ki, həlledici döyüşlərdə iştirak edə bilmədim. 1942-ci il dekabrın 26-da hücum zamanı yaralandım. Yaram yüngüldür. Faşist cəlladlarını öz qanlı yuvalarında darmadağın edəcəyimiz vaxta az qalıb».

Lakin Gərayın yaraları o düşündüyü qədər də yüngül deyildi. Dörd ay Tbilisidəki hərbi xəstəxanaların birində müalicə olundu.

Sağaldıqdan sonra baş həkim ona qısamüddətli mə'zuniyyət vermək istədi.

- Çox zəifləmisiniz, sizə bir müddət dincəlmək lazımdır, - dedi. O, qəti etiraz etdi:

- Doğrudur, kəndimizə getməyi arzulayıram. Şahsevəndən ötrü burnumun ucu göynəyir. Lakin indi müharibədir. Vətənimizin müqəddəratı həll olunur. Belə vaxtda dincələ bilmərəm!

Hərbi xəstəxananın baş həkimi xeyli susdu. O, ucaboylu, pəhləvan cüssəli, qarayanız serjantın ürək ağrısı ilə dediyi sözlərə etinasız qala bilmədi. Cəbhəyə getməsinə icazə verdi.

Gərayın doğma hissəyə qayıtması əsl bayrama çevrildi. Bölmənin döyüşçüləri onu dövrəyə aldılar. Bir-bir qucaqlayıb görüşdülər. Əsgərlərin bir neçəsi görsənmirdi. Gəray bir anlığa şahidi olduğu fəlakətləri xəyalına gətirdi. Həlak olan cavanların surəti gözünün qabağında canlandı. Dünyadan nakam getmiş bu cavanlar onu mübarizəyə səsləyirdi. O yenə silah götürdü, yenə döyüşə girdi.

Xarkov, Poltava şəhəri uğrunda gedən döyüşlər də Gəray və onun dostlarına yeni şöhrət qazandırdı. 93-cü Qırmızı Bayraqlı, Suvorov ordenli qvardiya diviziyası Xarkovun azad edilməsində fərqləndiyinə görə ona «Xarkov» diviziyası adı verildi və Vətənimizin paytaxtı Moskvada onun şərəfinə yaylım atəşi atıldı. Bu qələbədə Gərayın da payı vardı. Poltava uğrunda gedən şiddətli vuruşmada G.Əsədov yenidən yaralandı. Lakin o, cəbhəni tərk etmədi. Qısamüddətli müalicədən sonra yenidən cəbhəyə qayıdan Gəray Əsədov Moldaviya və Rumıniyanın azad edilməsində iştirak etdi.Gəray düşmən üzərində qələbəmizə bütün qəlbiylə inanırdı.

Rumıniya torpağı uğrunda gedən döyüşlərdə göstərdiyi rəşadət G.Əsədovu 93-cü Qırmızı Bayraqlı, Suvorov ordenli Xarkov qvardiya diviziyasında hamıya tanıtdı.

Gəray Əsədov ən çətin vəziyyətdə çıxış yolu tapan, müxtəlif hərbi fəndlərdən məharətlə istifadə edən, bacarıqlı komandir idi. Xuedin şəhəri uğrunda gedən döyüşlər zamanı onun göstərdiyi rəşadət buna parlaq misaldır.

1944-cü il oktyabrın 12-də 93-cü diviziyanın hissələrinə Xuedin şəhərini düşməndən azad etmək əmri verildi. Düşmən şəhəri əldən vermək istəmirdi. Onun qüvvətli minomyot atəşi tank desantçılarımızın irəliləməsinə ciddi mane olurdu. Gəray Əsədov faşistlərin minomyot atəşini susdurmağı qərara aldı. O, sürünə-sürünə faşist minamyotçuları qrupuna yaxınlaşıb, onlarla təkbətək döyüşə girdi, minomyotun heyətini məhv etdi. Sonra igid komandir minomyotun arxasına keçərək, onu düşmənin mövqeyinə tərəf tuşladı. Bu vuruşmada cəsur qvardiyaçı 24 hitlerçini məhv etdi. Düşmənə qarşı vuruşmada qəhrəmanlıq göstərdiyinə və öz bölməsinə məharətlə rəhbərlik etdiyinə görə G.Əsədov Qırmızı Bayraq ordeni ilə təltif edildi.

Gəray Əsədovun Rumıniyadakı döyüş yolu qısa və şərəfli olmuşdu. Döyüşçülərimiz bir yaşayış məntəqəsini faşistlərdən azad etmək üçün hücuma keçmişdilər. Ancaq üstünlük düşmən tərəfdə idi. Onlar qvardiyaçıları mühasirəyə alıb, məhv etmək istəyirdilər. Gəray Əsədov: «Öldürülən uşaqlar və analar, tökülən göz yaşları və axıdılan qanlar üçün düşməndən intiqam alaq!» - deyə «irəli atıldı. Bölmə onun ardınca hücuma keçərək, düşmənlə süngü döyüşünə girişdi. Qvardiyaçılar qəhrəmanlıqla vuruşub, süngü və qumbaralarla özlərinə yol açdılar. Şanlı sovet əsgərləri burada da qələbə çaldılar. Qüvvələrin qeyri-bərabər olduğu bu vuruşmada Azərbaycan xalqının qəhrəman oğlu G.Əsədov yoldaşları ilə birlikdə düşmənin 16 nəfər əsgər və zabitini məhv etmiş və 22 nəfərini isə əsir almışdı.

Gəray birdən itirdiyi qiymətli şeyi tapan adamlar kimi sevindi. Aleksandr Matrosovun göstərdiyi igidliyi xatırladı. Bir il bundan əvvəl yaralanarkən Matrosovun rəşadəti haqqında qəzetlərdən oxumuşdu. Onun mərd siması elə bil ki, düşmən gülləli arasında Gərayı qəhrəmanlığa səsləyirdi. Tək bircə çıxış yolu vardı: özünü, həyatını qurban verib, dostlarını xilas etmək və düşmən üzərində qələbə çalmaq! O, ayağa qalxıb irəli qaçır, üzu üstə yatıb sürünür, düşmənin atəş nöqtəsinə yaxınlaşırdı. Birdən «Vətən uğrunda!» - deyərək, qartal kimi şığıyıb, öz köksünü pəncərədən görünən pulemyotun lüləsinə dayadı. Gərayın bədəninə sanki onlarca xəncər sancıldı. Alov püskürən düşmən pulemyotu susdu. Qvardiyaçılar rotası dərhal polad axın kimi irəli cumdu. Stansiya uğrunda qanlı döyüş başlandı. Döyüşçülərimiz qəti hücuma keçib, Marqata şəhərini hitlerçilərdən təmizlədilər. Hissənin döyüşçüləri öz komandirlərini əsgəri qaydada Marqata şəhərinin yaxınlığındakı hündür bir təpənin üstündə dəfn etdilər. Döyüş yoldaşları düşməndən Gəray Əsədovun intiqamını alacaqlarına and içdilər.

Faşist işğalçılarına qarşı Rumıniyada gedən döyüşlərdə komandanlığın tapşırığını nümunəvi yerinə yetirdiyinə və böyük igidlik göstərdiyinə körə Gəray Lətif oğlu Əsədov SSRİ Ali Soveti Rəyasət heyətinin 1945-ci il 24 mart tarixli Fərmanı ilə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq körüldü.

İllər keçsə də Gəray Əsədovun əziz xatirəsi Azərbaycan xalqının qəlbində həmişə yaşayacaq, onun döşünə vura bilmədiyi «Qızıl ulduz» şüurumuzda əbədi həkk olunub qalacaq.

Gəray Əsədovun igidliyi və onun ölüm xəbəri Vətənimizi qarış-qarış dolaşdı, doğma Şahsevənə də gəlib çatdı. 93- cü Qırmızı Bayraqlı, Suvorov ordenli Xarkov qvardiya diviziyasının qvardiya polku komandirindən Lətif kişiyə məktub gəldi. Gərayın kiçik qardaşı polk komandirinin məktubunu atasına astadan oxuyurdu:

«Əziz valadeynlər! Sizin oğlunuz, qvardiya serjantı Gəray Əsədov hərbi anda sadiq qalmış, sosialist Vətəni uğrunda döyüşlərdə qəhrəmanlıq və mərdlik göstərərək, 1944-cü il oktyabrın 19-da həlak olmuş və Norkivartarı qəzasındakı (Transilvaniya) Marqata şəhərinin cənub ucqarında dəfn edilmişdir».

Lətif kişi qulaqlarına inanmadı, «qara kağız»ın dəhşətli sətirlərini oğluna dönə-dönə oxutdu, gözlərinə qaranlıq çökdü. Alnındakı dərin qırışların üzərinə soyuq tər gəldi. Müharibə onun qəlbinə dağ çəkmişdi... Uşaq yaşlarında oğlunu apardığı yaylaqlara çıxdı, adını öyrətdiyi çiçəklərə baxdı. Lakin dərdini ovuda bilmədi. O, çaşıb qalmışdı, hələ bu xəbəri ömürgün yoldaşı Gülaraya necə deyəcəkdi? Necə deyəcəkdi ki, Gəray artıq yoxdur, uzaq Rumıniya torpağında həlak olub...

Ana qəlbi həssas olur. Ərinin baxışlarındakı kədəri sezdi. Özünü Lətif kişinin üstünə atıb, hönkür-hönkür ağlamağa başladı. Qara kəlağayısı başından sürüşüb düşən Gülara heç nə görmürdü, heç nə eşitmirdi. Ana öz oğlunun ölümünə inana bilmirdi. Lakin artıq Gərayın ölümü bütün kəndə yayılmışdı.

Ata və ana bircə şeylə təsəlli tapdı: Gəray Vətən uğrunda qəhrəman kimi vuruşdu, qəhrəman kimi də öldü. Gərayın adı mərdlik və rəşadət simvolu oldu, döyüş dostlarının, qədirbilən xalqımızın və müasirlərimizin qəlbində yaşadı, onları Vətən uğrunda hünərlərə ruhlandırdı.

Müharibənin qurtarmasına baxmayaraq, Gəray Əsədov bizim qəlbimizdə 21 yaşlı gənc kimi yaşayır. Gəray ölməmişdir! Onun igidliyi və adı əbədi məşəl kimi gələcək nəsillərin qəhrəmanlıq yollarına nur səpir, xalqımızın qəlbində daim yaşayır.

Mayıl Alıcanov
Bakı, 1975-ci i

# Görkəmli ictimaiyyətçi və qayğıkeş insan Soltan Əzizov



II Dünya müharibəsində qəhrəmanlıq zirvəsinə yüksələn həmyerlilərimizdən biri də müharibənin dəhşətləri içərisindən sağ-salamat gəlib doğma yurduna alını açıq, başı uca dönən zabitlərdən biri də Soltan Hümmət oğlu Əzizovdur.

Soltan Əzizov 1920-ci il dekabrın 18-də Şəki rayonunda anadan olmuşdur. Şəkidə Kənd təsərrüfatı texnikumunu bitirdikdən sonra rayonun Böyük Dəhnə kolxozunda və maşın-traktor stansiyasında sahə aqronomu işləmişdir. 1939-cu ildə hərbi xidmətə getmiş, İkinci Dünya müharibəsi başlandıqdan sonra hərbi hissədə rota komandirinin müavini vəzifəsində ön cəbhədə vuruşaraq Brest, Kursk, Oryol və başqa şəhərlərin azğın düşməndən azad edilməsində həmçinin məşhur "Baqration"əməliyyatının həyata keçirilməsində, Berlin şəhəri də daxil olmaqla Avropanın bir cox şəhərləri uğrunda doyüşlərdə qəhrəmancasına iştirak etmişdir. Döyüş meydanında göstərdiyi şücaətə görə Soltan Hümmət oğlu Əzizov iki dəfə "Qırmızı ulduz"ordeni, I-ci və 2-ci dərəcəli Böyük Vətən müharibəsində xidmətlərinə görə ordenləri, Kensberqin, Berlinin və başqa şəhərlərin alınmasına görə medalları ilə təltif edilmişdir.

1946-cı ildə ordudan tərxis olunmuşdur. İnsan həyatda bir çox arzularına qovuşa, məqsədinə nail ola bilər. Əlbəttə ki, əgər arzularının arxasınca getsə, qarşısına qoyduğu məqsədlərinə nail olmaq üçün sonadək əzmlə çalışarsa...

Soltan Hümmət oğlu Əzizov II Dünya müharibəsindən doğma vətəninə qayıdandan sonra 1946-cı ildən 1953-cü ilədək Şəki Rayon Partiya Komitəsində şöbə müdiri və birinci katib vəzifələrində işləmişdir.

1953-1956-cı illərdə Moskvada Ali Partiya məktəbində təhsil aldıqdan sonra Azərbaycan KP MK-da məsul təşkilatçı, birinci katibin köməkçisi olmuş, MK-nin inzibati orqanlar, plan-maliyyə və ticarət şöbəsinə rəhbərlik etmişdir.

1962-1966-cı illərdə Ağdam və Sabirabad rayonlarında Partiya komitəsinin birinci katibi vəzifələrində işləmişdir.

Azərbaycanımızın böyük zəkaya malik görkəmli dövlət xadimi Soltan Əzizov 1966-cı ildə bacarıqlı təşkilatçı və yüksək ixtisaslı kənd təsərrüfatı mütəxəssisi kimi bütünlüklə Respublika əhəmiyyətli işə irəli çəkilmişdir. 1982-ci ilədək yəni 16 ildən artıq bir müddətdə əvvəl meyvə-tərəvəz, çay, subtropik bitkilər üzrə Dövlət Komitəsinin sədri, sonra Sovxozlar naziri və tədarük nazirləri vəzifələrində işləmiş, qeyd olunan sahələrin inkişaf etdirilməsinə, Respublikamızın iqtisadiyyatının yüksəldilməsinə daha da irəli getməsinə böyük əmək sərf etmişdir. Onun xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, Lenin ordeni, üç dəfə "Qırmızı Əmək Bayrağı" ordeni, Şərəf Nişanı ordeni, bir çox medallar ilə təltif olunmuş, eyni zamanda Azərbaycan Respublikası Ali Sovetinin deputatı, Azərbaycan KP MK-nin üzvü seçilmişdir.

Aqillər deyiblər ki, həyatdan kam alan, həyatı dərk edən insanları sevənlər savadlı sayılırlar, yalnız belələri sadəliyin təcəssümüdürlər. Belələrinə bel bağlamaq, etibar etmək olar. Onlar ən faydalı və səmimi insanlardır. Məhz II Dünya müharibəsi iştirakçısı, görkəmli dövlət xadimi, ictimai xadim Soltan Əzizovda həmin insanlardandır.Yaşının ahıllığına və I qrup müharibə əlili olmasına baxmayaraq Soltan Əzizov təqaüdə çıxdıqdan sora da Respublikamızın ictimai həyatından kənarda qalmamış, Respublika Ağsaqqallar Şurasının üzvü, Qayğı cəmiyyəti sədrinin birinci müavini və Azərbaycan müharibə, əmək və Silahlı Qüvvələr təşkilatının rəyasət heyətinin üzvü olmuşdur. Göstərilən təşkilatların işində fəal iştirak etmişdir.

Soltan Əzizov vətəninə, doğulduğu yerə, soya bağlı bir insan idi. O, anadan olduğu yeri - Şəkini çox sevirdi, o həmişə rayonumuzda aparılan mədəni quruculuq və abadlıq işlərini, həmçinin yeni-yeni müasir məktəb tikililərini və istirahət mərkəzlərini gördükdə sevinir dostları və ictimaiyyətin nümayəndələri vasitəsilə Şəki şəhər İcra Hakimiyyətinin rəhbərliyinə şəxsən hörmətli Elxan müəllim Usubovun rayonumuzun inkişafına önəm verdiyi üçün minnətdarlığının çatdırılmasını xahiş və təvəqqe edirdi.

Soltan müəllim işlədiyi vəzifələrdə öhdəsinə düşən xidməti borcunu məsuliyyətlə və layiqincə yerinə yetirməklə Şəkiyə xas olan kalorit, iti və ağıllı zəka, dərin düşüncə daima özünü göstərirdi. O, hər il bütün yay fəslini doğulduğu, möhkəm bağlı olduğu ata yurdunda, doğmalarının, müharibə veteranlarının, ictimaiyyət nümayəndələrinin, dostlarının yanında qədim şəhərdə keçirərdi.

II Dünya müharibəsi iştirakçısı, Respublikamızın kənd təsərrüfatının qocaman təşkilatçılarından biri, görkəmli ictimaiyyətçi və dövlət xadimi, üzündən təbəssüm əskik olmayan sadə, sədaqətli və qayğıkeş insan olan Soltan Hümmət oğlu Əzizov uzunsürən ağır xəstəlikdən sonra 2009-cu ildə vəfat etmişdir.

Şəki rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının təşəbbüsü ilə 2015-ci ildə Soltan Hümmət oğlu Əzizovun anadan olmasının 95-ci ildönümü münasibətilə qədirbilən dövlətimiz, xüsusilə, Şəki şəhər İcra Hakimiyyətinin başçısı, hörmətli Elxan müəllim Usubov həmişə olduğu kimi rayonumuzda yaşayıb dövlətinə və xalqına bağlı olan görkəmli insana dəyər verərək Soltan Əzizovun xatirəsini əbədiləşdirmək məqsədilə onun anadan olduğu və yaşadığı evə xüsusi lövhə asılması, eləcə də Şəki şəhərində yerləşən küçələrdən birinin onun adına verilməsi barədə sərəncam imzalamışdır.

Bir daha Şəki rayon Veteranlar Təşkilatının çoxsaylı üzvləri adından və şəxsən öz adımdan görkəmli dövlət xadimi, xalqın sevimlisi Soltan Əzizova layiq olduğu qiyməti verən, onun adını əbədiləşdirən Şəki şəhər İH-nin başçısı hörmətli Elxan müəllim Usubov başda olmaqla bütün komandasına dərin ehtiram və təşəkkürümüzü Azərbaycan Veteranı qəzeti vasitəsilə çatdırmağı özümüzə borc bildik.

***Vaqif Əhmədov***
***Şəki Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının Sədr müavini***

# Meyvə və tərəvəzlərin rənglərinə görə faydaları

### Ağ rəngli qidalar

Ağ rəngli qidalar immunitet sistemini gücləndirir. Bunun la yanaşı xolesterolu və qan şəkərini salır, ürək xəstəlikləri riskini azaldırlar.

Sarımsaq, soğan, ağ turp, göbələk və gül kələmi ağ rəngli qidalar sayılır.

### Yaşıl rəngli qidalar

Yaşıl meyvə və tərəvəzlərin tərkibində fitokimyasal maddələr var. Xüsusilə bəzi xərçəng risklərinin azaldılmasında, göz sağlamlığında, əzələ və sümüklərin yenilənməsində və sağlam dişlərdə rol oynayırlar.

Yaşıl qidalar arasında brokoli, ispanaq, kivi, yaşıl bibər, xiyar, yaşıl soğan kimi qidaları saymaq olar.

### Sarı rəngli qidalar

Sağlam bir dəridə mühüm rol oynayan sarı rəngli qidalar, bununla yanaşı həzm sistemini inkişaf etdirir və beyin funksiyalarını həyata keçirirlər.



Sarı qidalar arasında banan, limon, ananas, sarı bibər, qarğıdalı və kartofu saymaq olar.

### Narncı rəngli qidalar

Narıncı rəngli qidalar antioksidant baxımından çox zəngindir. Xərçəngdən qoruyur, ürək xəstəlikləri riskini azaldır, immunitet sistemini gücləndirirlər.

Narıncı qidalar arasında portağal, kök, balqabaq, şaftalını saymaq olar.

### Qırmızı rəngli qidalar

Ürək sağlamlığı üçün tərkibində lazımi fitokimyasal maddə olan qırmızı yeməklər həmçinin yaddaşı gücləndirir və iltihabın qarşını alır.

Qırmızı rəngli qidalar arasında pomidor, alma, çuğundur, qırmızı bibər, çiyələk, qırmızı soğan, qırmızı üzüm sayıla bilər.

### Bənövşəyi rəngli qidalar

Bənövşəyi qidalara rəngini verən antosiyaninlər yaşlanma əleyhinə rol oynayır. Həmçinin sümük sağlamlığını inkişaf etdirir və bəzi xərçəng növlərinə yaxşı təsir edir.

Bənövşəyi qidalar arasında badımcan, bənövşəyi ərik, qaragilə, bənövşəyi kələm sayıla bilər.

## *Xurmanın daha bir inanılmaz faydası...*

Min bir dərdin dərmanı olan xurma nadir qida məhsullarındandır. Onun tərkibi insan üçün vacib olan vitaminlər və mikroelementlərlə zəngindir.

Tənəffüs yollarının xəstəliklərindən əziyyət çəkənlər üçün xurma olduqca faydalıdır. Ürək xəstəlikləri zamanı müntəzəm olaraq xurmadan istifadə etmək ürəyin tam fəaliyyətinin bərpası üçün ən yaxşı vasitələrdən biri sayılır.

Xurma damar və kapilyarların divarlarını möhkəmləndirir, həmçinin qan dövranını yaxşılaşdırır, yüksək qan təzyiqi olanlara müsbət təsir göstərir. Lakin şəkərli diabet xəstələrin, mədəsində qastrit olanların onu qəbul etməsi məsləhət görülmür.



Cənnət meyvəsi sayılan xurmanın faydalı cəhətlərindən biri də müxtəlif kimyəvi dərman preparatlarının qəbulundan sonra onların orqanizmdə yaratdığı fəsadların aradan qaldırılması xüsusiyyətidir. Mütəmadi xurmadan istifadə immun sistemini gücləndirir, onu lazımi səviyyədə saxlayır.

# Qəhvə və çay

*Demək olar ki, gündəlik həyatımızın ayrılmaz içkilərindən olan çay və bəzi insanların xüsusi zövqlə içdiyi qəhvə, insan orqanizması üçün çox faydalıdır.*

### *Kofein tərkibi*

Kofein dünyada ən çox istifadə olunan stimullaşdırıcı maddədir. Qəhvə və çay da daxil olmaqla bir çox içkilərin tərkibində mövcuddur. İnsan sağlamlığı üçün müsbət və mənfi təsirlərə malikdir. Qəhvənin tərkibində çayla müqayisədə kofein iki qat çoxdur. Kofeinin insan üçün təhlükəsiz hesab edilən miqdarı gün ərzində 400 milliqramdır. Bir stəkan (240 ml) dəmlənmiş qəhvənin tərkibində təxminən 95 mq kofein var, eyni miqdar çayda 47 mqdır.

Elm adamları kofeinin müsbət təsirini araşdırarkən ilk növbədə qəhvəyə diqqət ayırsalar da, maddənin müxtəlif miqdarda olmasına baxmayaraq hər iki içkinin də sağlamlığa xüsusi faydalar verə biləcəyini istisna etmirlər. Kofein qəbulu bəzi xroniki xəstəliklərin riskini azalda, idmanda performansı, əhval-ruhiyyəni və zehni cəsarəti artıra bilər. Mərkəzi sinir sistemimiz üçün güclü bir stimullaşdırıcı rol oynayır. Buna görə də aktiv həyat tərzi keçirməyimizə kömək edir.

Kofeinin zehni təsirinə gəldikdə isə araşdırmalar göstərir ki, həm sadə, həm də mürəkkəb işlərdə düşünmə qabiliyyətini yaxşılaşdırır. Norma



daxilində qəbul edildikdə beyində olan xəstəliklərə, alzheimerə, metabolik sindroma və piylənmə halındaki qaraciyər xəstəliklərinə qarşı qoruyucu təsir malikdir.

### *Antioksidant tərkibi*

Antioksidanlar orqanizmamızda xroniki xəstəliklərin inkişafının qarşısını almağa kömək edir. Həm çay, həm də qəhvə antioksidanlarla, xüsusən də polifenollarla zəngindir.

Çay və qəhvədə bir çox polifenol qrupu var. Qara çay thearubigins, taninlər, flavonoidlər, alkaloidlər, vitaminlər və katexinlərlə, qəhvə isə flavonoidlər və xlorogen turşusu (CGA) ilə zəngindir. Bu yaxınlarda edilən bir araşdırma flavonoid və thearubiginsin ağciyər və bağırsaq xərçəngi hüceyrələrinin böyüməsinə maneə törətdiyini və nəticədə onları tədricən məhv etdiyini sübut etdi. Talesemiya hüceyrələrində aparılan tədqiqatlar da oxşar nəticələr verdi və qara çayın xərçəngə qarşı qoruyucu xüsusiyyətlərə malik olduğunu göstərdi.

Qəhvənin anti-xərçəng xüsusiyyətləri üzərində aparılan araşdırmalar orqanizmi mədə-bağırsaq və qaraciyər xərçənginə qarşı qoruduğunu və sürətlə böyüyən xərçəng hüceyrəsinin böyüməsinə mane olduğunu sübut etmişlər.

Polifenollar isə ürək xəstəlikləri riskini azaldır.

# E L A N

***İkinci dünya müharibəsinin iştirakçılarının yaxınlarının nəzərinə!!!***

Azərbaycan xalqının qəhrəman oğul və qızları tarixin səhifəsinə adlarını qızıl hərflərlə yazıb, azərbaycanlı adını iftixarla daşıyıblar. Onlar daima xatırlanmalı, əbədi yaşamalıdırlar. Respublika Veteranlar Təşkilatı tərəfindən İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 75 illiyi ərəfəsində müharibədə həlak olmuş və ya sonradan vəfat etmiş, eləcə də, sağ veteranların tanıdılması istiqamətində müntəzəm işlər aparılır.

Hörmətli həmvətənlərimiz, bu vətənpərlik missiyasında bizə kömək göstərməklə yaxınlarınızın tanıdılmasına yardımçı olacaqsınız. İkinci Dünya müharibəsində iştirak etmiş şəxslər haqqında informasiya və onların müharibə dövrünə (və ya müharibədən sonra) aid foto şəkillərini aşağıda göstərilən ünvana göndərməyinizi xahiş edirik.

**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi 34**
**e-mail: az.veteran@mail.ru**
**Tel: 012 4923681 Fax: 0124927884**

**Əziz oxucular, “Azərbaycan Veteranı” qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**
**Qeyd: Əziz və hörmətli oxucular, “Azərbaycan Veteranı” qəzetinə abunə olmaq üçün “Azərmətbuatyayımı” ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

**“Azərbaycan Veteranı” qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, “Azərbaycan Veteranı” qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*“Azərbaycan Veteranı” qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə “Azərbaycan Veteranı” qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və “Veteran Nəşriyyatı” mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*